“Maarifpərvərlik” Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi

“Education” Public Support Association of Youth of Azerbaijan (EPSAYA) public union

Azərbaycan Respublikası, Lənkəran şəhəri, AZ 4200, Heydər Əliyev prospekti 3,
İnternet səhifəsi: www.epsaya.az, E-mail: info@epsaya.az, Telefon/Mobil: (0 51) 814 44 42

# PRES-RELİZ – 2014

MAGİYA ictimai birliyi 2014-cü il ərzində müxtəlif hökumət, qeyri-hökumət və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. MAGİYA ictimai birliyi 22 yanvar 2014-cü il tarixində Lənkəran şəhər bələdiyyəsinin ofisində **“Azərbaycanda demokratik təşəbbüslərə dəstək”** layihəsi çərçivəsində 15 nəfər gənc üçün yarım günlük görüş təşkil etmişdir. Görüş zamanı heyətlə iştirakçılar arasında bələdiyyə ilə əlaqədar bir çox mövzular – ***“Bələdiyyələr, onların səlahiyyətləri və funksiyaları, bələdiyyə seçkiləri”*** müzakirə olunmuşdur. Tədbir zamanı bəzi iştirakçılar layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı.





2. MAGİYA ictimai birliyi 16-25 yanvar 2014-cü il tarixlərində ABŞ Dövlət Departamentinin maliyyə və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) təşkilati dəstəyi ilə həyata keçirilən **“Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliyi üçün əməkdaşlığın gücləndirilməsi – III faza”** adlı layihə çərçivəsində Masallı rayonunda 30 təlim kursu həyata keçirmişdir. Layihənin məqsədi icmalarda məktəb şagirdlərini, universitet tələbələrini, gəncləri və digər tərəfləri bilgiləndirmək və sonradan insan alverinin qarşısının alınması və öz icmalarında həmyaşıdları arasında təhlükəsiz miqrasiya barədə məlumatları yaymaqdan ibarətdir. Masallı Rayon Təhsil Şöbəsinin əməkdaşlarının birgə iştirakı ilə Masallı şəhər 3 saylı tam orta məktəbdə, Masallı şəhər 2 saylı tam orta məktəbdə, Masallı şəhər S.Tağıyev adına 4 saylı Digah tam orta məktəbdə, Masallı şəhər Seybətin tam orta məktəbdə, İsbəndiyar Zülalov adına İskəndərli kənd tam orta məktəbdə, C.Qasımov adına Bambaşı kənd tam orta məktəbdə, Ərzuman İsmayılov adına

Yeyənkənd kənd tam orta məktəbdə, Bəyalı Məmmədov adına Böyük Xocavar kənd orta məktəbdə, B.Nuriyev adına Binə Xocavar kənd tam orta məktəbdə, N.Əbilov adına Kəlbəhüseynli kənd tam orta məktəbdə, Əfqan Mirzəyev adına Qızılavar kənd tam orta məktəbdə, Bədəlan kənd tam orta məktəbdə, N.Gəncəvi adına Boradigah qəsəbə 1 saylı ümumtəhsil orta məktəbdə, Səməd Vurğun adına Türkoba kənd tam orta məktəbdə, Dəmirçi kənd ümumi orta məktəbdə, C.Cabbarlı adına Ərkivan qəsəbə 1 saylı orta məktəbdə, Z.Nəcəfov adına Ərkivan qəsəbə 2 saylı tam orta məktəbdə, Əlvan Bağırov adına Ərkivan qəsəbə 4 saylı orta məktəbdə, Ərkivan qəsəbə 3 saylı tam orta məktəbdə, Ərkivan qəsəbə 5 saylı ümumi orta məktəbdə, Qızılağac kənd 2 saylı orta məktəbdə, S.Xəlilov adına Qızılağac kənd 1 saylı orta məktəbdə, Yeddioymaq kənd 1 saylı orta məktəbdə, T.M.Bayraməlibəyov adına Yeddioymaq kənd 2 saylı ümumtəhsil orta məktəbdə, Hüseynhacılı kənd ümumi orta məktəbdə, Səfəralı Məmmədov adına Sərçuvar kənd tam orta məktəbdə, Ə.Bəylərbəyov adına Xıl kənd tam orta məktəbdə, F.Xancanov adına Musakücə kənd tam orta məktəbdə, Ə.Məmmədov adına Öncəqala kənd tam orta məktəbdə və Masallı şəhəri, "Dəfinə" məktəb-liseydə müvafiq təlim kursları təşkil olunmuşdur. Təlim kurslarında ümumilkdə 865 şagird iştirak etmişdir. Təlim kurslarında heyətlə iştirakçılar arasında insan alveri riskləri və təhlükəsiz miqrasiya məsələləri geniş müzakirə olunmuş və iştirakçılara müvafiq kitabça və bukletlər paylanılmışdır. Təlim kursları ərzində heyət üzvləri müxtəlif təqdimatlar, fokus qrup müzakirələri, beyin həmləsi və debat kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və mövzu ilə əlaqədar bir neçə sosial çarxlar izlənilmişdir. Sonda regiondakı şagirdlərin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donorlarına minnətdarlıq etmişdir.






3. MAGİYA ictimai birliyi 30-31 yanvar – 07 fevral 2014-cü il tarixlərində ABŞ Dövlət Departamentinin maliyyə və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) təşkilati dəstəyi ilə həyata keçirilən **"Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliyi üçün əməkdaşlığın gücləndirilməsi – III faza"** adlı layihə çərçivəsində Lənkəran rayonunda 30 təlim kursu həyata keçirmişdir. Layihənin məqsədi icmalarda məktəb şagirdlərini, universitet tələbələrini, gəncləri və digər tərəfləri bilgiləndirmək və sonradan insan alverinin qarşısının alınması və öz icmalarında həmyaşıdları arasında təhlükəsiz miqrasiya barədə məlumatları yaymaqdan ibarətdir. Lənkəran şəhər Təhsil Şöbəsinin əməkdaşlarının birgə iştirakı ilə Lənkəran şəhər M.Bağırov adına 1 nömrəli tam orta məktəbdə, Lənkəran şəhər Teymur Bayraməlibəyov adına 2 saylı tam orta məktəbdə, Lənkəran şəhər Həzi Aslanov adına 3 nömrəli tam orta məktəbdə, Lənkəran şəhər V.Əliyev adına 4 nömrəli humanitar təmayüllü məktəb – liseydə, Lənkəran şəhər Rasim Məmmədov adına 5 nömrəli tam orta məktəbdə, Lənkəran şəhər S.Kazımbəyov adına 6 saylı tam orta məktəb – liseydə, Lənkəran şəhər A.Məhərrəmov adına 7 nömrəli tam orta məktəbdə, Lənkəran şəhər Rövşən Bədəlov adına 9 saylı orta məktəbdə, Lənkəran şəhər 10 nömrəli

tam orta məktəbdə, Lənkəran şəhər Azad Babayev adına 8 saylı orta məktəbdə, Mübariz Həsənov adına Şilavar kənd ümumi orta məktəbdə, Vidadi Qasımov adına Digah kənd tam orta məktəbdə, M.G.Bağırov adına Girdəni kənd orta məktəbdə, Rüfət Həsənov adına Viravul kənd 1 nömrəli tam orta məktəbdə, Ədalət Hüseynov adına Vilvan kənd tam orta məktəbdə, R.İbadov adına Cil kənd orta məktəbdə, R.Ağayev adına Şağlaser kənd tam orta məktəbdə, M.Qarayev adına Zövlə kənd tam orta məktəbdə, Separadi kənd tam orta məktəbdə, İdrak Hüseynov adına Osaküçə kənd tam orta məktəbdə, R.Dadaşov adına Sütəmurdov kənd orta məktəbdə, Velədi kənd ümumi orta məktəbdə, Gərmətük qəsəbə orta məktəbdə, Şürük kənd tam orta məktəbdə, Möhübbət Həmzəyev adına Səpnəkəran kənd orta məktəbdə, Ağaxan Quliyev adına Hirkan qəsəsbə tam orta məktəbdə, M.Nəzərov adına Parakənd kənd orta məktəbdə, Xanbulan kənd orta məktəbdə, Lənkəran Dövlət Humanitar Kollecində və Lənkəran Tibb Kollecində müvafiq təlim kursları təşkil olunmuşdur. Təlim kurslarında ümumilkdə 865 şagird və tələbə iştirak etmişdir. Təlim kurslarında heyətlə iştirakçılar arasında insan alveri riskləri və təhlükəsiz miqrasiya məsələləri geniş müzakirə olunmuş və iştirakçılara müvafiq kitabça və bukletlər paylanılmışdır. Təlim kursları ərzində heyət üzvləri müxtəlif təqdimatlar, fokus qrup müzakirələri, beyin həmləsi və debat kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və mövzu ilə əlaqədar bir neçə sosial çarxlar izlənilmişdir. Sonda regiondakı şagirdlərin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donorlarına minnətdarlıq etmişdir.





4. MAGİYA ictimai birliyinin təşkilati dəstəyi ilə 15 fevral 2014-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutunun və Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən **“Regionlardan olan gənclər üçün liderlik məktəbi”** layihəsinin məzunları və 10 könüllü ***“Təmizlik istəyirsənsə ətrafından birinci sən başla”*** adlı 135 manat məbləğində olan birinci icma əsaslı layihənin həyata keçirilməsi çərçivəsində Lənkəran şəhərinin Soltanağa Bayramov küçəsindəki zibilləri təmizləmiş, küçə boyu 3 ədəd zibil qutusu qoymuş və sakinlər arasında maarifləndirici vərəqələr paylamışlar.





5. MAGİYA ictimai birliyinin təşkilati dəstəyi ilə 16 fevral 2014-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutunun və Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən **"Regionlardan olan gənclər üçün liderlik məktəbi"** layihəsinin məzunları və 8 könüllü ***"Ekoloji Gənclik"*** adlı 139 manat məbləğində olan ikinci icma əsaslı layihənin həyata keçirilməsi çərçivəsində Lənkəran şəhərinin Mirmustafaxan və Hacı Nəsir küçələrindəki zibilləri təmizləmiş, hər iki küçə boyu 4 ədəd zibil qutusu qoymuş, ağaclarda 3 quş evciyi asmış və sakinlər arasında maarifləndirici vərəqələr paylamışlar.





6. MAGİYA ictimai birliyinin təşkilati dəstəyi ilə 17 fevral 2014-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutunun və Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən **"Regionlardan olan gənclər üçün liderlik məktəbi"** layihəsinin məzunları və 15 könüllü ***"Gələcəyə doğru təmiz addımla"*** adlı 180 manat məbləğində olan üçüncü icma əsaslı layihənin həyata keçirilməsi çərçivəsində Astara şəhərinin Heydər Əliyev prospektindəki zibilləri təmizləmiş, küçə boyu 4 ədəd zibil qutusu qoymuş və sakinlər arasında maarifləndirici vərəqələr paylamışlar.

 

7. MAGİYA ictimai birliyi 10-17 fevral 2014-cü il tarixlərində ABŞ Dövlət Departamentinin maliyyə və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) təşkilati dəstəyi ilə həyata keçirilən **“Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliyi üçün əməkdaşlığın gücləndirilməsi – III faza”** adlı layihə çərçivəsində Astara rayonunda 30 təlim kursu həyata keçirmişdir. Layihənin məqsədi icmalarda məktəb şagirdlərini, universitet tələbələrini, gəncləri və digər tərəfləri bilgiləndirmək və sonradan insan alverinin qarşısının alınması və öz icmalarında həmyaşıdları arasında təhlükəsiz miqrasiya barədə məlumatları yaymaqdan ibarətdir. Astara rayon Təhsil Şöbəsinin əməkdaşlarının birgə iştirakı ilə M.Ə.Sabir adına Astara şəhər 1 saylı tam orta məktəbdə, Z.M.Bünyadov adına Astara şəhər 2 saylı tam orta məktəbdə, Ceyhun Babayev adına Astara şəhər 3 saylı orta məktəbdə, Ş.Qasımov adına Astara şəhər 4 saylı tam orta məktəbdə, Astara şəhər 5 saylı orta məktəbdə, F.Əliyarov adına Astara şəhər 6 saylı tam orta məktəbdə, Rasim Camalov adına Astara şəhər 7 saylı tam orta məktəbdə, Davud Əsədov adına Şahağacı kənd 2 saylı tam orta məktəbdə, R.Mirzəyev adına Şahağacı kənd 1 saylı orta məktəbdə, Nizami Gəncəvi adına Şiyəkəran kənd 1 saylı orta məktəbdə, Oktay Yəhyayev adına Şiyəkəran kənd 2 saylı tam orta məktəbdə, M.F.Axundov adına Pensər kənd 1 saylı orta məktəbdə, Z.Ə.Əhmədzadə adına Pensər kənd təbiət və texniki fənnlər təmayüllü orta məktəb-liseydə, Polad Həsənov adına Telman kənd tam orta məktəbdə, Məhərrəm Abiyev adına Vaqo kənd tam orta məktəbdə, Siyaku kənd tam orta məktəbdə, Şağlazüzə kənd tam orta məktəbdə, Səməd Vurğun adına Təngərüd kənd orta məktəbdə, Nizami Vəliağa oğlu Əliyev adına Maşxan kənd orta məktəbdə, Nail Həsənov adına Kijəbə qəsəbə orta məktəbdə, A.Hidayətov adına Lovayin kənd tam orta məktəbdə, N.Kərimov adına Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbdə, F.Qasımov adına Ərçivan qəsəbə 1 saylı tam orta məktəbdə, S.Kələntərov adına Ərçivan qəsəbə 2 nömrəli tam orta məktəbdə, Ərçivan qəsəbə 4 saylı tam orta məktəbdə, Elman Ağayev adına Səncərədi kənd tam orta məktəbdə, Azad İbrahimov adına Şuvi kənd tam orta məktəbdə, Yalçın Nəsirov adına Sərək kənd orta məktəbdə, Cəfər Cabbarlı adına 1 saylı Kakalos kənd orta məktəbdə və Astara Humanitar Kollecində müvafiq təlim kursları təşkil olunmuşdur. Təlim kurslarında ümumilkdə 925 şagird və tələbə iştirak etmişdir. Təlim kurslarında heyətlə iştirakçılar arasında insan alveri riskləri və təhlükəsiz miqrasiya məsələləri geniş müzakirə olunmuş və iştirakçılara müvafiq kitabça və bukletlər paylanılmışdır. Təlim kursları ərzində heyət üzvləri müxtəlif təqdimatlar, fokus qrup müzakirələri, beyin həmləsi və debat kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və mövzu ilə əlaqədar bir neçə sosial çarxlar izlənilmişdir. Sonda regiondakı şagirdlərin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donorlarına minnətdarlıq etmişdir.





8. MAGİYA ictimai birliyinin təşkilati dəstəyi ilə 18 fevral 2014-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutunun və Beynəlxalq İnkişaf Agentliyinin maliyyə dəstəyi ilə həyata keçirilən **"Regionlardan olan gənclər üçün liderlik məktəbi"** layihəsinin məzunları və 16 könüllü ***"Futbol meydançadan başlayır"*** adlı 173 manat məbləğində olan dördüncü icma əsaslı layihənin həyata keçirilməsi çərçivəsində Bərdə rayonunun Qara Yusifli kəndindəki boş sahəni təmizləmiş, orada meydança qurmuş və uşaqlar arasında futbol yarışı təşkil etmişlər.





9. MAGİYA ictimai birliyi 13 mart 2014-cü il tarixində Lənkəran şəhər 73 saylı Dairə Seçki Komissiyasının ofisində **"Azərbaycanda demokratik təşəbbüslərə dəstək"** layihəsi çərçivəsində 16 nəfər gənc üçün yarım günlük görüş təşkil etmişdir. Görüş zamanı heyətlə iştirakçılar arasında Dairə Seçki Komissiyası ilə əlaqədar bir çox mövzular – ***"Azərbaycanda seçki praktikası, Seçki Məcəlləsi, Yerli və Beynəlxaq təcrübə"*** müzakirə olunmuşdur. Tədbir zamanı bəzi iştirakçılar layihə və seçkilər barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı.




10. MAGİYA ictimai birliyi 28 mart 2014-cü il tarixində Lənkəran şəhərindəki ofisində **“Regionlardan olan gənclər üçün liderlik məktəbi”** layihəsinin bitməsi ilə əlaqədar mətbuat konfransı təşkil etmişdir. Tədbirdə liderlik layihəsinin məzunları da daxil olmaqla, 15 nəfərə yaxın KİV, hökumət, QHT və Gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir. Tədbir zamanı təşkilatın nümayəndələri iştirakçılara “Regionlardan olan gənclər üçün liderlik məktəbi” layihəsi, onun uğurları və davamlı nəticələri barədə qısa məlumatlar vermişlər. Onlar xüsusilə də, liderlik layihəsinin məzunları tərəfindən üç rayonda – Bərdə, Astara və Lənkəranda uğurla həyata keçirilən 4 yerli icma layihələri/təklifləri barədə danışdılar. Həmçinin onlar qeyd etdilər ki, layihənin büdcəsi 32000 dollar olmuşdur və bu da təşkilata regionda daha bir ən böyük gənclər layihəsinin həyata keçirilməsinə böyük bir imkan vermişdir. Tədbir zamanı bəzi iştirakçılar layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Azərbaycan Respublikasının regionlarından olan gənclərinin bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı NDİ və USAİD-ə minnətdarlıq etdi.




11. MAGİYA ictimai birliyi 12-21 aprel 2014-cü il tarixlərində Lənkəran şəhərində yerləşən AB Qala otelində Azərbaycanın 16 müxtəlif regionundan (Bakı, Bərdə, Daşkəsən, Gəncə, Goranboy, Xaçmaz, Qazax, Lənkəran, Mingəçevir, Naxçıvan, Oğuz, Şəki, Şəmkir, Şirvan, Tovuz və Zaqatala) olan 25 nəfər gənc üçün Almaniyanın MitOst Assosiasiyasının təşkilati və Alman Federal Xarici İşlər Nazirliyinin və Robert Bosch Stiftung Fondunun maliyyə dəstəyi ilə (10773,75 Avro) **“İnkişaf Zamanı”** layihəsi çərçivəsində 1 həftəlik təlim kursları təşkil etmişdir. Təlim kurslarında 11 nəfər

oğlan və 14 nəfər qız iştirak etmişdir. Təlim kurslarında heyətlə iştirakçılar arasında müasir inkişaf sahəsi ilə əlaqədar bir çox mövzular geniş müzakirə olunmuşdur. Təlimin keçirilməsi zamanı heyət interaktiv qrup müzakirələri, debatlar, simulyasiyalar, təqdimatlar, fokus qrup müzakirələri, rol oyunları kimi bir çox təlim metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı bir-çox sosial çarxlar izlənilmişdir. Təlim kursunun sonunda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora regionlardan olan gənclər üçün belə bir faydalı layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər.





12. MAGİYA ictimai birliyi 14 iyun 2014-cü il tarixində MAGİYA ictimai birliyinin ofisində **“Azərbaycanda demokratik təşəbbüslərə dəstək”** layihəsi çərçivəsində 16 nəfər gənc üçün yarım günlük görüş təşkil etmişdir. ***“MAGİYA ictimai birliyi: onun fəaliyyətləri və layihələri”*** adlı görüşdə heyətlə iştirakçılar arasında MAGİYA ictimai birliyi ilə əlaqədar bir çox mövzular müzakirə olunmuşdur. Görüş ərzində heyət fokus qrup müzakirələri və təqdimatlar kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Tədbir zamanı bəzi iştirakçılar yeni layihələr barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı.





13. MAGİYA ictimai birliyi 18 iyul 2014-cü il tarixində MAGİYA ictimai birliyinin ofisində **“Azərbaycanda demokratik təşəbbüslərə dəstək”** layihəsi çərçivəsində 20 nəfərə yaxın gənc üçün

bir günlük təlim kursu təşkil etmişdir. ***"Bələdiyyə seçkilərində potensial gənc namizədlər üçün seçki maarifləndirilməsi"*** adlı təlim kursunda heyətlə iştirakçılar arasında bələdiyyələrlə əlaqədar bir çox mövzular – bələdiyyələr haqqında təfsilatli məlumatlar, onların səlahiyyət və funksiyaları, eləcə də bələdiyyə seçkilərinin proseduraları müzakirə olunmuşdur. Təlim kursu ərzində heyət təqdimatlar, qrup işləri və fokus qrup müzakirələri kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Tədbir zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı.




14. MAGİYA ictimai birliyinin nümayəndələri 23 avqust 2014-cü il tarixində Lənkəran şəhərində **"Azərbaycanda demokratik təşəbbüslərə dəstək"** layihəsi çərçivəsində sakinlər arasında seçki məlumatlandırması kampaniyası təşkil etmişlər. Kampaniya ərzində sakinlərə seçki hüququ haqqında yüzdən çox maarifləndirici bukletlər paylanılmışdır.





15. MAGİYA ictimai birliyi 19 sentyabr 2014-cü il tarixində MAGİYA ictimai birliyinin ofisində **"Azərbaycanda demokratik təşəbbüslərə dəstək"** layihəsi çərçivəsində 20 nəfərə yaxın gənc üçün bir günlük görüş təşkil etmişdir. ***"Bələdiyyə seçkilərində seçicilərin və namizədlərin iştirak hüquqları barədə video kliplər"*** adlı görüşdə heyətlə iştirakçılar arasında 2 video klip izlənilmişdir. Görüş zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Qeyd edək ki, Azərbaycan Gənclər İttifaqının BMT-nin Demokratiya Fondunun

(UNDEF) maliyyə dəstəyi ilə 01 yanvar 2013-cü il – 31 dekabr 2014-cü il tarixlərində icra edilən "Azərbaycanda Demokratik Təşəbbüslərə Dəstək" layihəsi çərçivəsində bələdiyyə seçkilərində seçici kimi iştirak hüququ barədə və bələdiyyəyə üzv seçilmək hüququ barədə maarifləndirmə videoçarxları hazırlamışdır. Həmin videoçarxları diqqətinizə çatdırırıq: https://www.youtube.com/watch?v=r4iR9jGBz_E&feature=youtu.be və https://www.youtube.com/watch?v=67x1B_GqTlc&feature=youtu.be. Əlavə edək ki, layihə üzrə Lənkəran şəhərində tərəfdaş təşkilat "Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyidir.





16. MAGİYA ictimai birliyi 07-09 noyabr 2014-cü il tarixlərində Lənkəran şəhərində yerləşən AB Qala otelində Azərbaycanın 13 müxtəlif regionundan (Ağstafa, Astara, Bakı, Cəlilabad, Daşkəsən, Gəncə, Goranboy, Naxçıvan, Neftçala, Sumqayıt, Tovuz, Yardımlı və Yevlax) olan 20 nəfər gənc üçün Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə (6500 AZN) **"Korporativ sosial məsuliyyətin inkişafında gənclərin rolunun artırılması"** mövzusunda 3 günlük təlim kursları təşkil etmişdir. Təlim kurslarında 10 nəfər oğlan və 10 nəfər qız iştirak etmişdir. Qeyd edək ki, təlim kurslarından öncə Azərbaycanın 25 müxtəlif yaşayış məntəqəsindən (Abşeron, Ağstafa, Astara, Bakı, Balakən, Bərdə, Cəlilabad, Daşkəsən, Gəncə, Goranboy, Göyçay, Kürdəmir, Qazax, Lənkəran, Mingəçevir, Naxçıvan, Neftçala, Sumqayıt, Şəki, Şəmkir, Şirvan, Tovuz, Yardımlı, Yevlax və Zəngilan) 73 gənc ərizəçi (35 oğlan və 38 qız) təlim kurslarında iştirak etmək üçün təşkilata müraciət etmişdir. Təşkilatın heyətindən başqa təlim kurslarında qonaq qismində Azərbaycan Respublikasının Gənclər və İdman naziri cənab Azad Rəhimov, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri xanım İndira Hacıyeva, Lənkəran Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin Baş məsləhətçiləri cənab Asif İmanlı və cənab Nazim Əmənullayev, Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəisi cənab Yalçın Əhmədov və rəis müavini cənab Nazim Vəliyev, ekspert qismində isə 6 saylı Ərazi Vergilər İdarəsinin vergi ödəyicilərinə xidmət sektorunun müdiri, ABŞ-ın "İcma Əlaqələri Proqramı – 2008"-in KSM sahəsi üzrə məzunu cənab Eldəniz Kərimov və Bank Standard KB Lənkəran Filialının direktoru cənab Rüfət Əsgərov iştirak edərək özlərinin bilik və təcrübələrini gənclərlə bölüşmüş və iştirakçıların suallarını cavablandırmışlar. Təlim kurslarında heyətlə iştirakçılar arasında Korporativ sosial məsuliyyət (KSM) sahəsi ilə əlaqədar bir çox mövzular – ***"Korporativ Sosial Məsuliyyətli (KSM) sessiyası:*** KSM Fəaliyyət anlayışı, KSM Siyasət və onun formalaşması, KSM üzrə Dövlətin sosial siyasəti, KSM və davamlı inkişaf, KSM – yerli və beynəlxalq təcrübə kontekstində, Biznesin KSM – xeyriyyəçilik, KSM şirkətlər qrupu – yerli şirkətlərə çıxış, KSM və Karyera imkanları, KSM-in formalaşmasında gənclərin rolu və yeri, KSM-in inkişafında QHT institutları və onların funksiyaları, KSM əsaslı layihələrin – təkliflərin yazılması və idarəçiliyi, KSM sahəsində Dövlət qurumları ilə

əməkdaşlıq, KSM sahəsində özəl qurumlarla əməkdaşlıq, KSM sahəsində QHT-lərlə əməkdaşlıq, KSM sahəsində İcmalarla əməkdaşlıq, KSM sahəsində KİV-lərlə əməkdaşlıq; ***Korporativ Sosial Məsuliyyətli (KSM) ünsiyyət (kommunikasiya) sessiyası:*** Ünsiyyət necə işləyir, Aktiv dinləmə və cavab vermə bacarıqları, Başqa nəzər nöqtələrə baxmaq bacarıqları, Düşüncə və Ön görmələrin idarə olunması, Güclü tərəflərin müəyyən olunması, Sizi başqaları necə görür, Bədən dilinə baxış, Mimikalar və jestlər, Özünə inamın artırılması, Çətin insanlar və çətin situasiyalar, Konfliktlərin həlli, İcma ilə nəsillərarası ünsiyyət; ***Korporativ Sosial Məsuliyyətli (KSM) ictimai müvəkkilik (Advokasi) sessiyası:*** Advokasi – ictimai vəkillik anlayışı, Advokasi fəaliyyətinin məqsəd və məramları, Advokasi kampaniyası mərhələlərinin ardıcıllığı, İnformasiya təminatı, maarifləndirmə və təbliğat, İctimaiyyətlə əlaqələr (PR), İcma səviyyəli ictimai müvəkkilik, İctimaiyyətin səfərbər olunması, Sosial tərəfdaşlıq, Advokasi kampaniyasında məsələ və problem anlayışı, məsələnin seçilməsi, problemin qoyuluşu, Advokasi kampaniyası üçün informasiyanın toplanması üsulları, Advokasinin əsas strategiyası, Strategiya və Taktika anlayışları, Advokasi kampaniyasında məqsəd: qısa müddətli məqsəd, uzun müddətli məqsəd, Qanunvericilik, Məhkəmələr, Dəstək bazasının genişlənməsi və KİV vasitəsilə Advokasi; ***Korporativ Sosial Məsuliyyətli (KSM) mesajın hazırlanması sessiyası:*** Mesajın forması və çatdırılma üsulları, Effektiv mesajın meyarları, Beyin həmləsi texnikasından istifadə*”* müzakirə olunmuşdur. Təlimin keçirilməsi zamanı heyət interaktiv qrup müzakirələri, debatlar, simulyasiyalar, təqdimatlar, fokus qrup müzakirələri, rol oyunları və enercayzerlər kimi bir çox təlim metodlarından geniş istifadə etmiş, eləcə də, bütün sessiya ərzində mövzularla bağlı müxtəlif sosial çarxlar izlənilmişdir. Təşkilatçılar həmçinin iştirakçılarla layihə ilə bağlı gələcək fəaliyyətləri, xüsusilə də, layihə çərçivəsində həyata keçirilən tədbirlərin nailiyyətləri, nəticə və yekunu barədə 05 dekabr 2014-cü il tarixində Lənkəranda mətbuat konfransının təşkilini də müzakirə etmişlər. Təlim kursunun sonunda bütün iştirakçılara sertifikatlar və KSM barədə müvafiq bukletlər təqdim edilmişdir. Sonda iştirakçılar və təşkilatçılar, eləcə də qonaqlar və ekspertlər layihə ilə bağlı öz fikirlərini bildirmiş və donora – Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna gənclər üçün belə bir aktual layihənin reallaşdırılmasını təmin etdiyi üçün minnətdarlıq etmişlər.






17. MAGİYA ictimai birliyi 26-27 noyabr tarixlərində Astara şəhərində Şindan oteldə **“Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması”** layihəsi çərçivəsində Azərbaycan Respublikasının 5 müxtəlif rayonundan (Astara, Cəlilabad, Lənkəran, Masallı və Yardımlı) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə 2 günlük təlim kursu təşkil etmişdir. Təlim kursunda 14 nəfər qız və 11 nəfər oğlan iştirak etmişdir. Təlim kursunda təşkilatın heyətindən başqa Astara rayon Gənclər və İdman İdarəsinin rəisi cənab Ərçə Əliyev, rəis müavini cənab İqrar Cəfərov, məsləhətçi xanım Elnurə Dadaşlı, Astara bələdiyyəsinin üzvü cənab Natiq Əbilov, Pensər bələdiyyəsinin üzvü xanım Nərgiz Əhmədova, Ərçivan

bələdiyyəsinin üzvü cənab Orucəli Əliyev, Şüvü bələdiyyəsinin sədri cənab Mail Muradov və üzvü xanım Ayxanım İbrahimova da iştirak etmiş və gənclərlə öz bilik və təcrübələrini bölüşmüşlər. Təlim kursunda heyətlə iştirakçılar arasında seçki hüququ mövzusunda bir sıra məsələlər – “Bələdiyyə və bələdiyyə institutu haqqında ümumi məlumat, Azərbaycanda bələdiyyə institutunun formalaşması və inkişafı mərhələləri, seçki hüququ barədə ümumi anlayış – ilk dəfə səsverənlər üçün ümumi məlumatlandırma, seçki mədəniyyəti – dünya praktikasında seçkilər, ümumi seçki formaları və keçirilmə növləri – seçkinin hüquqi tənzimlənməsi, bərabər və birbaşa seçki hüququ – seçki hüquqlarından istifadə, Azərbaycanda seçkinin formaları və keçirilməsi – seçkiləri tənzimləyən qanunvericilik, aktiv və passiv seçki hüququ – seçkidə seçici kimi iştirak etmək üçün lazım olan hüquqi sənədlər, səsvermə prosesində seçici siyahısında adların müəyyən edilməsi və səsvermə bülletenlərinin doldurulması qaydası” müzakirə olunmuşdur. Təlim ərzində heyət müxtəlif rol oyunları, interaktiv qrup işləri, debatlar, simulyasiyalar, fokus qrup müzakirələri və təqdimatlar kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və bütün sessiya ərzində mövzularla bağlı bir-çox sosial çarxlar izlənilmişdir. Təlim kursunun sonunda bütün iştirakçılara müvafiq bukletlər və sertifikatlar təqdim edilmişdir. Sonda bütün iştirakçılar cənub bölgəsində gənclər üçün belə bir mühüm layihənin həyata keçirilməsini təmin etdiyi üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə minnətdarlıq etmişlər.






18. MAGİYA ictimai birliyi 28-29 noyabr tarixlərində Lənkəran şəhərində AB Qala otelində **“Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması”** layihəsi çərçivəsində Azərbaycan Respublikasının 7 müxtəlif rayonundan (Astara, Beyləqan, Biləsuvar, Cəlilabad, Lerik, Lənkəran və Saatlı) olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə 2 günlük təlim kursu təşkil etmişdir. Təlim kursunda 14 nəfər qız və 11 nəfər oğlan iştirak etmişdir. Təlim kursunda təşkilatın heyətindən başqa Lənkəran Şəhər İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin Baş məsləhətçisi cənab Nazim Əmənullayev, Lənkəran şəhər Gənclər və İdman İdarəsinin rəis müavini cənab Nazim Vəliyev, Lənkəran bələdiyyəsinin sədr müavini cənab Azər Ələskərov, 73 saylı Lənkəran Dairə Seçki Komissiyasının nümayəndələri cənab Samid Abbasov və cənab Malik Baxşiyev də iştirak etmiş və gənclərlə öz bilik və təcrübələrini bölüşmüşlər. Təlim kursunda heyətlə iştirakçılar arasında seçki hüququ mövzusunda bir sıra məsələlər – “Bələdiyyə və bələdiyyə institutu haqqında ümumi məlumat, Azərbaycanda bələdiyyə institutunun formalaşması və inkişafı mərhələləri, seçki hüququ barədə ümumi anlayış – ilk dəfə səsverənlər üçün ümumi məlumatlandırma, seçki mədəniyyəti – dünya praktikasında seçkilər, ümumi seçki formaları və keçirilmə növləri – seçkinin hüquqi tənzimlənməsi, bərabər və birbaşa seçki hüququ – seçki hüquqlarından istifadə, Azərbaycanda seçkinin formaları və keçirilməsi – seçkiləri tənzimləyən qanunvericilik, aktiv və passiv seçki hüququ – seçkidə seçici kimi iştirak etmək üçün lazım olan

hüquqi sənədlər, səsvermə prosesində seçici siyahısında adların müəyyən edilməsi və səsvermə bülletenlərinin doldurulması qaydası" müzakirə olunmuşdur. Təlim ərzində heyət müxtəlif rol oyunları, interaktiv qrup işləri, debatlar, simulyasiyalar, fokus qrup müzakirələri və təqdimatlar kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və bütün sessiya ərzində mövzularla bağlı bir-çox sosial çarxlar izlənilmişdir. Təlim kursunun sonunda bütün iştirakçılara müvafiq bukletlər və sertifikatlar təqdim edilmişdir. Sonda bütün iştirakçılar cənub bölgəsində gənclər üçün belə bir mühüm layihənin həyata keçirilməsini təmin etdiyi üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə minnətdarlıq etmişlər.






19. MAGİYA ictimai birliyi 01-02 dekabr tarixlərində Masallı şəhərində Masallı Mehmanxanasında **"Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması"** layihəsi çərçivəsində Masallı rayonundan olan 25 nəfər gənc üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə 2 günlük təlim kursu təşkil etmişdir. Təlim kursunda 25 nəfər oğlan iştirak etmişdir. Təlim kursunda təşkilatın heyətindən başqa Masallı rayon Gənclər və İdman İdarəsinin rəisi cənab Camal Manafov, idarənin rəis müavini cənab Oktay Ağayev, məsləhətçi cənab Emin Nüsrətov və Masallı rayon Təhsil Şöbəsinin nümayəndəsi cənab Əyyar Burhanov da iştirak etmiş və gənclərlə öz bilik və təcrübələrini bölüşmüşlər. Təlim kursunda heyətlə iştirakçılar arasında seçki hüququ mövzusunda bir sıra məsələlər – "Bələdiyyə və bələdiyyə institutu haqqında ümumi məlumat, Azərbaycanda bələdiyyə institutunun formalaşması və inkişafı mərhələləri, seçki hüququ barədə ümumi anlayış – ilk dəfə səsverənlər üçün ümumi məlumatlandırma, seçki mədəniyyəti – dünya praktikasında seçkilər, ümumi seçki formaları və keçirilmə növləri – seçkinin hüquqi tənzimlənməsi, bərabər və birbaşa seçki hüququ – seçki hüquqlarından istifadə, Azərbaycanda seçkinin formaları və keçirilməsi – seçkiləri tənzimləyən qanunvericilik, aktiv və passiv seçki hüququ – seçkidə seçici kimi iştirak etmək üçün lazım olan hüquqi sənədlər, səsvermə prosesində seçici siyahısında adların müəyyən edilməsi və səsvermə bülletenlərinin doldurulması qaydası" müzakirə olunmuşdur. Təlim ərzində heyət müxtəlif rol oyunları, interaktiv qrup işləri, debatlar, simulyasiyalar, fokus qrup müzakirələri və təqdimatlar kimi bir çox təlim metodlarından geniş istifadə etmiş və bütün sessiya ərzində mövzularla bağlı bir-çox sosial çarxlar izlənilmişdir. Təlim kursunun sonunda bütün iştirakçılara müvafiq bukletlər və sertifikatlar təqdim edilmişdir. Sonda bütün iştirakçılar cənub bölgəsində gənclər üçün belə bir mühüm layihənin həyata keçirilməsini təmin etdiyi üçün Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə minnətdarlıq etmişlər.





20. 22 Dekabr 2014-cü il tarixində MAGİYA ictimai birliyi Lənkəran şəhərindəki ofisində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə (5000 AZN) həyata keçirilən **“Bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılması”** layihəsinin bitməsi ilə əlaqədar mətbuat konfransı təşkil etmişdir. Tədbirdə 20 nəfərə yaxın KİV, hökumət, QHT və Gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir. Tədbir zamanı təşkilatın nümayəndələri iştirakçılara mövcud layihənin uğurları və davamlı nəticələri barədə qısa məlumatlar vermişlər. Layihənin məqsədi yerli icra hakimiyyəti, bələdiyyələr və dairə seçki komissiyaları ilə sıx əməkdaşlıq çərçivəsində bələdiyyə seçkilərində gənclərin fəallığının və iştirakçılığının artırılmasından ibarət olmuşdur. Tədbir zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, region gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Sonda Azərbaycan Respublikasının regionlarından olan gənclərinin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donoruna minnətdarlıq etdi.





21. 22 Dekabr 2014-cü il tarixində MAGİYA ictimai birliyi Lənkəran şəhərindəki ofisində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə (6500 AZN) həyata keçirilən **“Korporativ sosial məsuliyyətin inkişafında gənclərin rolunun artırılması”** layihəsinin bitməsi ilə əlaqədar mətbuat konfransı təşkil etmişdir. Tədbirdə 20 nəfərə yaxın KİV, hökumət, QHT və Gənclər təşkilatlarının nümayəndələri iştirak etmişdir. Tədbir zamanı təşkilatın nümayəndələri iştirakçılara mövcud layihənin uğurları və davamlı nəticələri barədə qısa məlumatlar vermişlər. Layihənin məqsədi korporativ sosial məsuliyyət siyasətinin formalaşmasında gənclərin

maarifləndirilməsi və məlumatlandırılmasından ibarət olmuşdur. Tədbir zamanı bəzi iştirakçılar cari layihə barədə müvafiq suallar vermiş və tədbirin sonunda qeyd etmişlər ki, gələcəkdə də, ölkə gəncləri üçün bu cür maraqlı və faydalı layihələrin həyata keçirilməsi çox yaxşı olardı. Sonda Azərbaycan Respublikasının gənclərinin bilik və bacarıqlarının gücləndirilməsinin yüksəldilməsi istiqamətində göstərdiyi diqqət və dəstəyə görə hamı layihənin donoruna minnətdarlıq etdi.





*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi*

*30 dekabr, 2014-cü il*